# AZƏRBAYCAN DÖVLƏT MƏDƏNIYYƏT VƏ İNCƏSƏNƏT UNIVERSITETI

- Bazar iqtisadiyyatının əsasını  xüsusi mülkiyyət və əmtəə istehsalı təşkil  edir. Lakin cəmiyyətlərin tarixi inkişaf  prosesinin müxtəlif mərhələlərində  iqtisadi həyatın ümumi  formaları fəaliyyət göstərir.
Təsərrüfat tiplərinin  təşkili və onların təkamülü iqtisadi inkişafın qanunauyğunluqları  çərçivəsi daxilində  həyata keçirilir. Iqtisadi həyatda fəaliyyət göstərən  təsərrüfat tiplərinin təşkili formaları bunlardır: a) natural təsərrüfat; b) sadə əmtəə təsərrüfatı; v) kapitalist əmtəə təsərrüfatı; q) planlı əmtəə təsərrüfatı.



- Təsərrüfat təşkili tiplərinin tarixən ilkin forması natural istehsaldır. Təsərrüfatın belə bir təşkili formasında istehsal ilə istehlakın həcmi üst-üstə düşür. Natural təsərrüfat feodal mülkiyyəti ilə də çox xarakterikdir.
  Əmtəə təsərrüfatı forması natural təsərrüfatın əksi kimi yaranmışdır.
  Təsərrüfat tiplərinin sonrakı təkamülü ictimai əmək bölgüsünü yaradır.
  Ictimai əmək bölgüsü- bir məhsul və ya məhsulun bir hissəsini istehsal etmək üçün ixtisaslaşmasıdır.
  İctimai əmək bölgüsünün formaları aşağıdakılardır:
  Maldar tayfaların əkinçilikdən ayrılması birinci ictimai əmək bölgüsünü yaradır.
- İctimai sənətkarların formalaşması və sənətkarlıq sahələrinin meydana gəlməsi ikinci iri ictimai əmək bölgüsünü yaradır.
- Tacirlərin bir sinif kimi formalaşması üçüncü iri ictimai əmək bölgüsünü yaradır.



- Natural təsərrüfatdan fərqli olaraq əmtəə təsərrüfatı istehsalın elə bir təşkili formasıdır ki, burada istehsal olunan məhsullar ancaq mübadilə sferasına daxil olur. Əmtəə təsərrüfatının olması üçün aşağıdakı şərtlər tələb olunur:
  İctimai əmək bölgüsü. Əmtəə istehsalı şəraitində müxtəlif təsərrüfat sahələri fəaliyyət göstərir. Bu təsərrüfat sahələri müxtəlif növ məhsul istehsalı üzrə ixtisaslaşırlar. Sənaye kənd təsərrüfatından ayrılır. Sənaye istehsalının müxtəlif sahələri yaranır.
- Mülkiyyət formaları. Istehsal vasitələri üzərində xüsusi mülkiyyətin olması əsas amillərdən biridir. Əmək məhsulu olan əmtəə istehsal vasitələri üzərində olan mülkiyyət sahibinə məxsusdur. Bu səbəbdəndir ki, sahibkar öz məhsulunu əmtəə kimi digər zəruri əmtəəyə dəyişdirməlidir, yəni məhsul mübadilə olunmalıdır.
- İstehsalçılar arasında iqtisadi əlaqə forması kimi əmtəə mübadiləsi olmalıdır.
- Təsərrüfatın bazarla tənzimlənən xarakteri.

- Əmtəənin 2 xassəsi vardır:

istehlak dəyəri

- mübadilə dəyəri

- Əmtəənin faydalılığı, insanın bu və ya digər bir tələbatını xassəsi onu istehlak dəyəri edir. İstehlak dəyəri hər hansı bir şeyin təbii xassəsindən asılıdır. Lakin istehlak dəyəri onu yaradan əməyin kəmiyyət miqdarından asılı deyildir. Məhsulun əmtəəyə çevrilməsi üçün mübadilə dəyərinin olması şərtdir. Çünki, mübadilə dəyəri kimi bütün əmtəələr müəyyən bir kəmiyyət nisbətində bir- birinə dəyişdirilməlidirlər. İstehlak dəyəri baxımından əmtəələri ölçmək olmaz. Lakin mübadilə dəyəri nöqteyi nəzərindən əmtəələr ölçülürlər, çünki əmtəələr dəyişdiriləndə onların əsasını mübadilə nisbəti təşkil edir. İstehlak dəyərinin müxtəlifliyinə baxmayaraq əmtəələrin istehsalına sərf edilən əmək eyni olduğuna görə bu əmtəələrin dəyərini ölçmək mümkündür. Əmtəələrin istehsalına sərf edilən əməyin miqdar kəmiyyəti həmin əmtəələrin dəyərini ölçmək imkanı verir və bunun əsasında əmtəələri dəyər baxımından bir- birilə müqayisə etmək olar. Deməli, əmtəənin müəyyən bir miqdar nisbətində başqa əmtəəyə dəyişdirilmə qabiliyyəti onu mübadilə dəyəri edir.



- İstehlak dəyəri və mübadilə dəyəri kateqoriyalarını elmi ədəbiyyata Aristotel, A. Smit, D. Rikardo, T. Maltus, K. Marks,. C. S. Mill və başqa alim- iqtisadçılar gətirmişdir.
  Əmək- dəyər nəzəriyyəsinin tərəfdarları göstərirdilər ki, keyfiyyətcə müxtəlif, kəmiyyətcə ölçülə bilməyən əmtəələr mübadilə oluna bilər. Onların fikrincə dəyişdirilən əmtəələrin ümumi bir əsası var. Bu ümumi əsas əmək məsrəfləridir və həmin əmək məsrəfləri mübadilə dəyərini müəyyən edir.
  Müasir Qərb iqtisadi ədəbiyyatında əmək- dəyər nəzəriyyəsindən fərqli olaraq yeni bir nəzəriyyə- faydalılıq nəzəriyyəsi meydana gəlmişdir. Faydalılıq nəzəriyyəsinin yaradıcıları K. Mengerin, E. Bem- Baverkin və F. Vizerin yaratdıqları son faydalılıq nəzəriyyəsinə əsaslanırlar. Bu nəzəriyyəyə görə mübadilənin əsasını dəyər deyil, faydalılıq təşkil edir.
  A. Smit əmtəə istehsalına sərf edilən əməyi, alınan əməyi( əmək haqqını), mənfəəti və torpaq rentasını dəyərə aid edir. D. Rikardo və D. R. Mak- Kullox dəyəri istehsal xərcləri kimi, J. B. Sey isə şeyin faydalılığı kimi izah edirlər. D. Loderdel dəyəri təklif və tələblə əlaqədə izah edir.

- **Tarixən əmtəə istehsalı təşkilinin üç forması ( tipi) mövcuddur: sadə əmtəə təsərrüfatı, kapitalist əmtəə istehsalı və planlı əmtəə təsərrüfatı.** Sadə əmtəə istehsalı təsərrüfat təşkilinin elə bir formasıdır ki, burada istehsal vasitələri üzərində istehsalçıların xüsusi mülkiyyəti var və onlar məhsulu mübadilə üçün, bazarda satmaq məqsədilə istehsal edirlər. Kapitalist əmtəə istehsalının xarakterik xüsusiyyəti ondan ibarətdir ki, müstəqil olan kapitalist- sahibkar istehsal amilləri əsasında öz iqtisadi fəaliyyətini təşkil edir. İstehsalın amilləri dedikdə, kapital, əmək, torpaq və sahibkar- kapitalist nəzərdə tutulur. Onu qeyd etmək lazımdır ki, **kapitalist- sahibkar iri istehsalı təşkil edir**. Fərdi kapitalist istehsalı ilə yanaşı kollektiv təsərrüfat formaları da təşkil olunur. Məsələn, müştərək sahibkarlıq, səhmdar cəmiyyətləri və s.
  Təsərrüfat tiplərinin xüsusi formalarından biri də inzibati- amirlik, mərkəzləşdirilmiş planlı iqtisadiyyatdır. Planlı iqtisadiyyatda əmtəə- pul və bazar əlaqələri saxlanılır. Lakin iqtisadiyyatın idarə edilməsinə dövlət həddən artıq nüfuz edir. Planlı əmtəə təsərrüfatında istehsalçılarla istehlakçılar arasında olan əlaqələri dövlər özü nizamlayır.
  Planlı əmtəə təsərrüfatı özünü doğrultmadığı üçün müasir mərhələdə bütün keçmiş sosialist ölkələri bazar iqtisadi sisteminə keçmişlər.



- Əmtəədə təcəssüm olunan və mübadilə zamanı təzahür edən ictimai əmək əmtəənin dəyərini yaradır. Bərabər dəyərə malik olan əmtəələr bir- birinə mübadilə edilir, bu əmtəələr ekvivalentdirlər. Dəyər mübadilə dəyərilə bağlıdır. Dəyər əmtəənin daxili xassəsidir, mübadilə dəyəri isə əmtəə dəyərinin təzahür formasıdır. Əmtəələrin dəyərlərinin bərabərləşdirilməsi və mübadiləsi əmtəə istehsalında xarakterik cəhətdir. Natural təsərrüfat şəraitində istehsalçılar vaxt vahidi əsasında ( saat, gün) sərf etdikləri əməklərini nəzərə alır və onun nəticəsini ölçürdülər. Lakin natural təsərrüfat şəraitində onların sərf olunmuş əməyi dəyər forması almırdı. Əmtəə təsərrüfatında isə əmək dəyər münasibətləri kimi təzahür edir. Deməli, əmtəə təsərrüfatında ictimai əmək birbaşa vaxt vahidi ilə ifadə olunur. İctimai əmək əmtəə istehsalında dolayısı yolla- yəni mübadilə prosesində təzahür edir. Məsələn, bir cüt ayaqqabı 3 kq. pambığa bərabər tutulur. Dolayısı yolla bu o deməkdir ki, bir cüt ayaqqabıya sərf edilən ictimai əmək 3 kq pambığa sərf edilən ictimai əməyə bərabərdir. Beləliklə, dəyər təkcə əmək məsrəfi deyil, o eyni zamanda əmtəə istehsalına sərf edilən ictimai əməkdir ki, mübadilə prosesində təzahür edir.

- Deməli, əmtənin dəyəri istehsal prosesində  əmək vasitəsilə yaradılır. Mübadilə prosesində dəyər  bir əmtəəni digər əmtəəyə dəyişdirəndə təzahür edir.  Buna mübadilə dəyəri deyilir.  Dəyərin ilkin  inkişaf forması sadə dəyər formasıdır. Məsələn, bir balta = 20 kq. taxıl.  Burada baltanın dəyəri 20 kq. taxılda ifadə olunmuşdur.  Taxıl baltanın dəyərini əks etdirir. Baltanın dəyəri  taxılın istehlak dəyərində  ifadə olunmuşdur, çünki həm taxılın, həm də baltanın istehsalına əmək sərf olunmuşdur.  Bu iki əmtəənin bir- birinə bərabər tutulması o deməkdir ki,  onların hər ikisinin istehsalına  sərf olunmuş əmək bərabərdir. Əmtəələrin bir-birinə bərabər olmasının əsasını bu əmtəələrdə  təcəssüm edən bərabər əmək sərfi təşkil edir.  Öz dəyərini digər əmtəədə ifadə edən əmtəə ( balta) nisbi dəyər forması, öz dəyərini ( taxıl) baltanın istehlak dəyərində  əks etdirən əmtəə ekvivalent dəyər formasıdır.
  *İlk mübadilə təsadüfi xarakter daşımış və bir növ məhsulun başqa növ məhsula  dəyişdirilməsi olmuşdur. Dəyərin belə formasına sadə və ya təsadüfi dəyər  forması deyilir. <*
  Birinci  iri ictimai əmək bölgüsünün yaranması ilə mübadilə müntəzəm şəkil alır. Məsələn, maldar tayfalar maldarlıq məhsulları istehsal etdikcə əkinçi tayfaların və sənətkarların istehsal etdiyi məhsullara ehtiyacı artır. Beləliklə, bu tayfalar  arasında olan mübadilə müntəzəm xarakter daşıyır. Belə bir tarixi inkişaf  nəticəsində dəyərin ikinci mübadilə forması- tam və ya dolğun dəyər forması yaranır.

# DİQQƏTİNİZ ÜÇÜN TƏŞƏKKÜRLƏR

